*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 135-143* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.135*

# Ədəbiyyatın psixoanalizi: metodoloji əsasları və nəzəri meyarları

**Suğra Ələkbərli**
Azərbaycan Dillər Universiteti. Azərbaycan.
E-mail: ssura7466@gmail.com

**Annotasiya.** Ədəbiyyatla psixologiya arasındakı əlaqə qaçılmaz və dərindir. Birincisi, ədəbiyyat insan ruhundan yaranır, psixologiya isə insan ruhunu öyrənir. İnsanın təxəyyülü, düşüncəsi, hissi, ümumiyyətlə, bütün psixi məsələləri həm ədəbiyyatın, həm də psixologiyanın ortaq mövzusudur. Psixologiya insan davranışlarını və onların səbəblərini araşdırır, ədəbiyyat isə insan davranışını bədii ədəbiyyat vasitəsilə təsvir edir. İstənilən bədii mətn müəyyən psixoloji vəziyyətin ifadəsi və məhsuludur. Çünki təbii yaşamı, fiziki təbiət hadisələrini bir kənara qoysaq, qalan hər şey insan mədəniyyətinin bir parçası, insan ruhunun ifadəsidir, homo-sapiensin yaradıcılıq aktıdır. İkincisi, ədəbiyyatşünaslıq bədii-estetik məsələlərin və problemlərin tədqiqi zamanı psixologiya elminin qənaətlərindən istifadə edir. Eləcə də, psixologiya elmində də psixoloji problemlərin şərhində ədəbiyyata müraciət olunur. Belə ki, ədəbiyyat və psixologiya arasında əlaqə, adətən, mətnləri təhlil etmək, yaradıcılıq prosesinin mahiyyətini anlamaq üçün formal şəkildə psixologiyadan istifadə etməklə (psixoloji təhlil vasitəsilə) qurulur. Psixologiya elmi də öz növbəsində, ədəbiyyatı öz təhlil predmetinə çevirə bilir. Təqdim olunan məqalədə ədəbiyyat və psixologiya arasındakı əlaqənin tarixinə qısa nəzər salınır, ədəbiyyatın psixoanalitik təhlilinə zəmin hazırlayan aspektlər nəzərdən keçirilir. Ədəbiyyat və psixologiya arasındakı əlaqənin qaçılmazlığı vurgulanır.
**Açar sözlər:** ədəbiyyat, yaradıcılıq, psixologiya, psixoanaliz, Z.Freyd

**Məqalə tarixçəsi:** göndərilib – 05.04.2023; qəbul edilib – 28.04.2023

# Psychoanalysis of literature: methodological foundations and theoretical criteria

**Sughra Alakbarli**
Azerbaijan University of Languages. Azerbaijan.
E-mail: ssura7466@gmail.com

**Abstract.** The connection between literature and psychology is inevitable and profound. First, literature originates from the human spirit, while psychology studies the human spirit. Human imagination, thought, feeling, in general, all mental issues are common topics of both literature and psychology. Psychology studies human behavior and its causes, while literature describes human behavior through fiction. Any literary text is an expression and product of a certain psychological state. Because, if we leave aside the natural life, the physical phenomena of nature, everything else is a part of human culture, an expression of the human soul, a creative act of homo-sapiens. Secondly, literary studies uses the conclusions of psychological science during the study of artistic and aesthetic issues and problems. Also, literature is used in the interpretation of psychological problems in the science of psychology. Thus, the connection between literature and psychology is usually established by formally using psychology (through psychological analysis) to analyze texts, to understand the essence of the creative process itself. Psychological science, in turn, can turn

literature into the subject of its analysis. In the presented article, a brief overview of the history of the relationship between literature and psychology is given, and the aspects that lay the groundwork for the psychoanalytic analysis of literature are reviewed. The inevitability of the relationship between literature and psychology is emphasized.
**Keywords:** literature, creativity, psychology, psychoanalysis, Z.Freud

**Article history:** received − 05.04.2023; accepted − 28.04.2023

## Giriş / *Introduction*

Ədəbiyyatşünaslıq elminin tədqiqat obyekti olan mətn psixologiya ilə ədəbiyyatın kəsişdiyi yerdir və bu kəsişmənin yaşı sənətin özü qədər qədimdir. Hələ psixologiya elm kimi formalaşmamışdan qabaq insanların "psixoloji" düşüncələri, duyğuları, emosiyaları, hiss və təəssüratları bədii əsərlərdə öz həllini tapırdı. İstənilən sənət əsəri həm öz müəllifinin psixoloji fərziyyələrinin təcəssümüdür, həm də onun şərhçilərinin psixoloji fərziyyələri ilə anlam qazanır. Deməli, bədii əsərin yaranması (yaradıcılıq aktı) və dərki (yaradıcılığın şərhi) istənilən halda psixoloji hadisədir, prosesdir, təcrübədir. Ədəbiyyata "psixologiyanın gözü" ilə baxanda müəllif mətn və oxucu üçbucağında formalaşan, insan amilinə əsaslanan çoxyönlü, mürəkkəb və dərin bir kompleks mənzərə ortaya çıxır. Bu mənzərəni adlandırmaq, təyin etmək isə psixoloji təhlilin əsas vəzifəsidir.

Bütün bədii mətnlərdə psixoloji məzmun istər-istəməz öz əksini tapır. Ədəbiyyatı öyrənən elm ədəbiyyatşünaslıq olduğuna görə, bədii mətndəki psixoloji məzmunu (bütövlükdə psixoloji olan nə varsa) aşkara çıxarmaq da ilk onun vəzifəsidir. Məhz psixoloji olanı üzə çıxarmaq məqamında ədəbiyyatşünaslıq psixologiya elminin qənaətlərindən bəhrələnir, bədii mətnə metodoloji yanaşmasını müəyyənləşdirir, psixoloji analizin strukturunu qurur.

Ədəbiyyata psixologiyanın gözü ilə baxmağın, psixoloji tənqid və ya təhlilin yaşı elə ədəbiyyatın yaşı qədər qədimdir desək, heç də yanılmarıq. Sözün geniş mənasında bütün tənqidlər psixolojidir, çünki bütün tənqid və nəzəriyyələr ədəbiyyatı yaradan və ədəbiyyatda yaradılan insanların istər-istəməz psixoloji fəaliyyətindən – fərziyyələrindən irəli gəlir. "Platon poetik təxəyyüldən ilahi bir dəlilik kimi bəhs edəndə, Aristotel katarsisdən, Kolric təxəyyüldən yazanda bir növ psixoloji şərhlə məşğul olublar" [10, s.29-30]. Düzdür, psixoloji məzmunu daha dərin olan mətnlər ədəbiyyatşünaslığın yaddaşında psixoloji təyinatları ilə işlənilir (məsələn, psixoloji roman, psixoloji tənqid və s.). Amma insan bütün tərəfləri, zehni və ruhuyla ədəbiyyatın predmeti olduğuna görə psixologiya onun ən yaxın dostudur.

Belə bir ümumi qənaət var ki, psixoloji tənqidin gerçək yaşı XIX əsrdən, psixologiya elminin müstəqil şəkildə formalaşması ilə eyni dönəmdən başlayır. Bu əsrə qədər geniş fəlsəfə çətiri altında olan psixologiya ilk dəfə ayrı bir elm sahəsinə çevrilmiş, fəlsəfədən ayrılmış və öz hekayəsini yazmağa başlamışdı. Yuri Borevin təbirincə desək, ədəbiyyat baxımından da məhz "XIX əsrdə psixoloji analiz kimi böyük bir bədii kəşf" [5, s.182] edilmişdi. Psixoloji təhlil psixologiyadan ədəbiyyata "baxmağın" qaydalarını, normativ prinsiplərini hazırlamış, estetik düşüncəni psixoloji akt kimi şərh etmişdir. Düzdür, ədəbiyyat psixologiya elminin qənaətlərindən, prinsip və meyarlarından istifadə etməyə XIX əsrdə başlayıb, lakin psixologiyanın elm kimi formalaşmasında ədəbiyyatın müstəsna xidməti olub.

## Əsas hissə / *Main Part*

**Ədəbiyyat və psixologiya arasındakı əlaqənin mahiyyəti**

Adətən, psixologiyanın tarixindən danışanlar Hermann Ebbinqhausun psixologiyanın "qısa bir tarixə, lakin uzun keçmişə" malik olması haqqında hökmünü sitat gətirməklə başlayırlar [3, s.14]. Psixologiya elmə çevrilməzdən əvvəl, əsasən, fəlsəfə və ədəbiyyatın daxilində formalaşmağa başlamışdır. Psixoloq və psixologiya tarixçisi Qraham Riçards "Psixologiya"nı (böyük hərflə) və "psixoloji" olanı (kiçik hərflə) bir-birindən ayırmağı məsləhət bilir və vurğulayır ki, birincisi, elmdir, peşədir (psixoloqlar, müəssisələr, kitablar və bilginin özünü ehtiva edir), ikincisi isə elm və peşənin araşdırdığı situasiya və prosesləri ifadə edir [21, s.22-23]. Məsələn, bir şəxsin qəzəblənməsi "psixoloji" haldır, bu halın araşdırılması isə "Psixoloji" araşdırmadır. Ədəbiyyat psixologiyaya məhz bu psixoloji hal, vəziyyət, situasiya, xassə və başqalarını təqdim edən dərin xəzinədir. Bu əlaqənin əhəmiyyəti bir çox psixoloqlar tərəfindən vurğulanmışdır, məsələn, B.M.Teplov deyirdi ki, "Bədii ədəbiyyat, elə tükənməz materialı ehtiva edir, onsuz elmi psixologiya keçinə bilməz" [24, s.306].

Ümumiyyətlə, psixologiyanın elm kimi formalaşması prosesini üç mərhələyə ayırırlar: elməqədərki (I mərhələ), ilkin elmi təsəvvürlər dövrü (e.ə.VII-VI əsrlərdən b.e.-nın XVIII əsrin sonlarınadək davam edən II məhələ) və elmi mərhələ (XIX əsrdə eksperimental psixologiya ilə başlayan III mərhələ) [19, s.16-20].

Bilirik ki, insanın ilk psixoloji təcrübəsi və ilk bədii düşüncəsi mifik mətnlərdə öz əksini tapmışdır. Mif həm ədəbiyyatın, həm də psixologiyanın yaddaşıdır, ortaq başlanğıcdır. Heç də təsadüfi deyil ki, Milet padşahının üç gözəl qızından biri, Eros tərəfindən ruh ilahəsinə çevrilmiş Psixeyanın hekayəsi psixologiya sözünün etimoloji mənşəyində dayanır [12]. Rəvayətə görə, Eros və ölümsüzləşən Psixeyanın həzzi və tutqunu təcəssüm etdirən Hedone adlı bir qızları da olur ki, hedonizm anlayışının da etimoloji açılışı buna dayanır. Beləcə, Eros (cinsəllik), Psixeya (ruh) və Hedone (həzz) insanların sevgilərini modelləşdirirlər. Biz isə burada, Apuleyin "Metamorfoz və ya qızıl eşşək" əsərinə qədər yol almış bu mifik hekayənin timsalında ədəbiyyat və psixologiyanın sintezinin qaçılmazlığını görürük [14]. Bu sinkretizm öz varlığını ən müasir ədəbiyyata qədər qoruyub saxlamaqdadır.

Bəzən psixologiyaya müasir mifologiya da deyirlər. Freyd və Yunqun ruhun xəritəsini hazırlarkən instinktiv olaraq klassik miflərə müraciətini və yeni interpretasiyalarında təəccüblü heç nə görməyən Karen Armstronq yazır ki, "mif psixologiyanın ilkin forması idi. Divlərlə döyüşən, labirintlərdən çıxış yolu tapan, yeraltı dünyaya enən Tanrı və qəhrəmanların hekayələri ruhun sirli mexanizmlərini aşkar edir, insanlara daxili krizislərini həll etmək üçün yol göstərirdi" [1, s.12-13]. Bir vaxtlar ritual və simvollarla dolu mifologiyada özünü izah edən, anlamağa çalışan insanlar bugün həmin ehtiyaclarını psixologiya elminin qənaətlərinə, təcrübəsinə istinadən ödəməyə çalışırlar. Mifoloji-dini və fəlsəfi dünyagörüş, bu kontekstdə ərsəyə gəlmiş bədii mətnlər insanın psixoloji təcrübəsinin əsas qaynaqlarını təşkil edir.

Aydındır ki, insan və kainat modeli zamanla dəyişmişdir, çünki insanın dünyanı qavrayışı və özü haqqında düşüncəsi əsrlər boyu bir-birini əvəz etdikcə fərqli, orijinal dünyagörüş sistemlərinin yaranmasına səbəb olmuşdur. Məsələn, antik dövrdə insan özünü kosmik nizamın bir parçası kimi görərkən, orta əsrlərdə insan "tanrıya", modern çağdakı insan isə "ağıl"a, humanist ideyalara üz tutmuşdu. Mifik dünyagörüşü elmi dünyagörüş əvəz etməyə başlamışdı. Xüsusilə, Karl Yaspersin aksial çağ (e.ə.800-200-cü illər) adlandırdığı dönəmdə [4, s.23-39] insanlar təbiətləri, insanlıq şərtləri və çatışmazlıqları haqda misli görünməmiş fərqindəlik qazanmışdılar. Konfutsiçilik, taosizm, buddizm, Orta Şərqdə monoteizm, Yunan rasionalizmi məhz bu dövrdə ortaya çıxmaqla fəlsəfi dünyagörüşün əsasını qoymuşdu. Bu da öz növbəsində insanın ilkin psixoloji təcrübəsi və təsəvvürlərinin mifdən fəlsəfəyə keçidini də şərtləndirmişdir. Fərdi ruhaniliyin önə çıxması, fərdi vicdan və mənəviyyata diqqət yetirilməsi aksial dövrün xarakterik xüsusiyyətləri, insanın psixoloji ax-

tarışlarının təzahür şəkilləri idi. Məsələn, Sarvepalli Radxakrişnan XX əsrin ortalarında ümumiləşdirirdi ki, buddizm metafizikadan bəhs etmir, psixologiya, məntiq və etikanın özüdür [20, s.10-12]. Deməli, fəlsəfi kontekstdə psixoloji mülahizələr qədim Yunanıstanda, Misirdə, Hindistanda, Farsda və Çində mövcud idi. Heç də təsadüfi deyil ki, çağdaş psixologiyanın fəlsəfi təməlindən bəhs edənlər insan davranışlarını fövqəltəbii güclərdən uzaqlaşaraq izah etmək cəhdlərini formalaşdıran Yunan alimlərinin görüşlərinə müraciət edirlər [8, s.5-19]. Platon beyni mental proseslərin baş verdiyi yer olduğunu irəli sürməklə, Aristotel isə bu yerin ürək olduğuna inanmaqla psixoloji düşüncələrin elmi təməlini qoymuşdu. Antik Yunan fəlsəfəsində psixe [15] (və ya psixeya, mifolinqvistik keçmişində Psixeya dayanır) qavramı ruh, zehin, mənlik qavramları ilə əlaqədar işlənirdi. Aristotel gözlə müşahidəsi qeyri-mümkün olan psixe qavramın özünü yox, funksiyalarını araşdırırdı, ruhun nə olduğunu deyil, necə işlədiyini izah etməyə çalışırdı. Psixe ideyası Platonun fəlsəfəsində də mərkəzi yer tutmuş, ruhun ölməzliyi konsepsiyasında öz əksini tapmışdır. Aristotel latınca "De anima", yunanca "Peri Psyches" adlı psixikaya dair traktatında "üç ruh (psixiya)" (vegetativ, heyvani və rasional) [22] haqqında nəzəriyyəsi demək olar ki, XIX əsrə qədər psixologiya sahəsində əsas nəzəriyyə hesab olunmuşdur. Psixika termini orta əsrlərin teoloji məzmunlu psixologiyasında istifadə edilən əsas terminlərdən birinə çevrilmiş, "anima" olaraq latınlaşdırılmışdı. Bununla yanaşı, antik çağda və orta əsrlərdə insanla bağlı fizioloji nəzəriyyələr və astroloji görüşlərdə də psixoloji mülahizələrin izlərinə rast gəlmək olurdu [18, s.112-113]. Hələ antik çağlarda temprament haqqında humoral nəzəriyyənin banisi Hippokrat deyirdi ki, insanlar 4 əsas "orqanizm şirəsi"nin nisbətinə görə fərqlənirlər: qan, fleqma, sarı öd və qara öd. Onun təliminə əsaslanan, antik dövrün məşhur həkimi Klavdi Qalen (130-200) "De temperamentum" adlı kitabında bu temperamentlərin tipoloji təsnifatını verir: sanqvinik (latınca sanqvius-qan), fleqmatik (yunanca fleqma-selik, bəlğəm), xolerik (yunanca chole-öd), melanxolik (yunanca melian chole – qara öd) [13].

Astoroloji görüşlərdə Merkuri planetinə və ya Merkuri tanrısına aid, dəyişkən, dinamik, çevik və şən insanları Merkurial, Saturn planetinin təsiri altında doğulmuş sabit və soyuq əhval-ruhiyyəli, tutqun xasiyyətli insanları isə saturnin adlandırmaq ənənəsi formalaşmışdı. Eləcə də, ruhən xəstə, təhlükəli, axmaq və ya dəli kimi görünən insanlara lunatik demək, bu astroloji görüşlərdən qalan ənənələrdir və bu gün Qərb dillərinin işlək sifətlərindəndir [11].

K.Armstronqa görə, postaksial dövrdə (e.ə.200-b.e.1500) dünyagörüşdə elə bir ciddi dəyişiklik olmamışdır, mifik-dini və fəlsəfi düşüncənin öz metafizik koloritini, demək olar ki, qorumuşdu [1, s.79]. Lakin Qərbdə Renesans hümanizm, fərdilik, şəxsiyyət amilləri üzərində insanla bağlı görüşlərə müəyyən dəyişiklik gətirmişdir, insan şəxsiyyətinə marağı artırmışdır. Dekart "Tanrı, maddə və ağıl" triadasına əsaslanan "Düşünürəmsə, demək, mövcudam" postulatında bəzən "ruh" deyil, "ağıl" adlandırdığı rasional ağıl ilə ruhun bədənə bağlı fizioloji fəaliyyətini fərqləndirirdi [21, s.32].

XVII əsrdə antropologiya adlı sahənin bir hissəsi kimi insan təbiəti haqqında empirik iddialara yönəlmə başladı. Alman filosofu Xristian Volf (1679-1754) latın terminlərini alman psixoloji terminləri ilə əvəz edir. Avropada psixologiya termininin yayılması da onun adı ilə bağlıdır. Ruh və ya ağlın empirik və rasional tədqiqini dini şərtlərdən qismən uzaqlaşdırmış, fiziki və psixi olanları paralel şəkildə, bir-birindən ayrılıqda təqdim olunduğu ənənəvi görüşdən fərqləndirərək, bildirirdi ki, bir tərəfdə fiziki hadisələr zəncirvari düzülür, digər tərəfdə isə psixi olanlar [26, s.92].

Artıq yeni sekulyar dünyada insanın dünyanı anlamaq və özünü anlatmaq mexanizmi fərqləndi. Çarlz Taylor "Sekulyar bir çağ" əsərində yazır ki, bu dönəmdə "düşüncələrin, duyğuların, mənəvi coşqunun tək məkanı zehin dediyimiz nəsnədir… və zehinlər məhduddur, buna görə də bu düşüncələr, duyğular və s. zehnin "içində" yer alır. Bu gün psixoloji dünya indiyə qədər ruhlar, şeytanlar və tanrılar üçün ayrılmış sahələri də əhatə edir. Dünyanın öz sehrini itirməsi ilə bərabər, zehnin qnoseoloji statusu yüksəlmişdir. Bu artıq transdental olana inanmadığımız anlamına gəlməz, bu əksəriyyətimizin

sehrli prosesləri (yəni anlamın tam özünün) təsirinin və obyektiv gücünün, sadəcə, zehində gerçəkləşdiyini xəyal edə bilməyimiz deməkdir" [23, s.12].

XVIII əsrdən sonra, xüsusilə XIX əsrdə bəşəriyyət epistomoloji dönüş yaşayır, bu elə bir qopma, dəyişmə prosesidir ki, düşüncə buraya qədər qazandığı təcrübəni referans almaqdan imtina edir. Epistemoloji qırılma sənət, mədəniyyət, fəlsəfə və elm kimi sahələrdə ilk dəfə keçmişdən müstəqil və sırf gələcəyi hədəfləyən hərəkətlərə səbəb oldu. Modern düşüncə fərdi şüurluluğu və subyektivliyi daxilində qavramağa can atmışdır. Yeni dönəmdə qnoseoloji/epistemoloji fəlsəfə psixoloji, sosioloji və məntiqi istiqamətlərdə formalaşırdı. Nəticə etibarilə, Qərbdə, XIX əsrin əvvəllərindən etibarən insanların daxili dünyalarında nəyi hərəkətə keçirməsini izah edən elmi konsepsiyanın formalaşmasına ehtiyac yaranır. "Cəmiyyətin əksəriyyətini bu düşüncə şəkli ilə tanış edənlər, psixoloqlar deyildi, Höte, Stendal, Puşkin, Lermontov, Qoqol kimi ədəbiyyat adamları idi" [21, s.43].

Beləliklə, müasir psixologiya elminin əsasları fəlsəfi psixologizm konsepsiyalarının daxilində yetişmiş, antropoloji, fizioloji tədqiqatların içindən keçərək nəticədə psixologiya elminin müstəqilləşməsinə səbəb olmuşdur. Əvvəlcə fəlsəfədən ayrılan psixologiya müxtəlif elmi-tədqiqat institutlarında və birliklərində institutlaşaraq müstəqilliyini elan edir. Təbii ki, psixologiyanın tətbiq sahəsi sosial sahələrdən daha çox tibbə yaxındır, buna görə də, "gənc" psixologiya biologiya elminə yaxınlaşdıqca elmilik qazanacağına inanırdı. Ona görə də əksər universitetlərdə psixologiya sosial elmlərdən çox, təbiət elmlərinə lövbər salmışdı. Psixologiya fəlsəfədən ayrılan kimi, insan şüurunun struktur tədqiqini öz üzərinə götürdü, lakin zehni birbaşa müşahidənin mümkün olmadığını qəbul edəndə, davranışları elmi araşdırmanın mövzusuna çevirdi. Beləliklə, 1879-cu ildə Vilhelm Vundt tərəfindən əsası qoyulmuş "eksperimental psixologiya"dan uzaqlaşıb "davranışçılığa" çevrilən psixologiya, daha sonra təkcə davranışı yox, həm də davranışlara təsir edən idraki fonu araşdıran bir elm olaraq günümüzün psixologiyasına çevrildi. Bu gün psixologiya dedikdə, psixikanın elmi və obyektiv öyrənilməsi haqqında elm nəzərdə tutulur. Psixika dedikdə, insan zehninin, şüurunun və şüuraltısının bütövlüyü nəzərdə tutulur.

XIX əsr bitib, XX əsr başlayanda, həyatın dərin əsasları dəyişdikdə, "İnsanın məhəbbət və ölüm, gerçəklik və ruh haqqında elementar, mistik və teoloji təsəvvürləri avtomatik olaraq əhəmiyyətini itirdi. Gündəlik varoluşun ənənəvi tənzimləyiciləri – din, əxlaq, hüquq artıq öz funksiyalarının öhdəsindən gələ bilmirdilər. Həyatı tənzimləmək üçün çatışmayan norma və mexanizmlər rolunu öz üzərinə götürməyə çalışan humanitar elmlərin praktik tətbiqlərinin zamanı yetişir. Sosiologiya və iqtisadiyyat, siyasi iqtisad və sosial psixologiya, psixoterapiya və psixoanaliz, pedaqogika və yevgenika – tətbiqi elmin ən müxtəlif sahələri legitimlik qazandı, hansı ki, köhnə mədəniyyətdə yalnız min illər boyu təqdis olunan ideyalardan ibarət idi [7].

Adətən belə fikir var ki, müasir psixologiya məhz Freyd və onun psixoanalizi ilə başlayır. N.Holland (1990, s.34) qeyd edir ki, ədəbiyyat Freydin psixoanalizinin kəşfində mühüm rol oynamışdır [10, s.34]. Həmidə Əliyeva bu barədə haqlı olaraq yazır: "XX əsrin əvvəllərindən etibarən psixoanaliz psixi pozuntuların, nevroz xəstələrinin müalicəsi zamanı istifadə olunan tibbi metodun dar çərçivələrini aşaraq orijinal mədəniyyət hadisəsinə çevrildi. Mənəvi və mədəni həyatın bir çox sahələrinin dərindən tədqiqinə şərait yaradan psixoanaliz nəzəriyyəsinin əsas müddəaları və ideyaları, xüsusilə bədii ədəbiyyatın təhlilində, yazıçı və şairlərin yaradıcılıq motivlərinin üzə çıxarılmasında, personajların psixologiyasının açılmasında istifadə olunmağa başlandı" [6]. Aydındır ki, ədəbiyyat psixoloji olanla bədii olanın sinkretikliyi üzərində qurulur. Bunun sinkretizmin adlandırılması məhz Freydin psixoanaltik təhlilləri ilə başlayır.

**Ədəbiyyatın psixoanalitik təhlili metodu və əsas prinsipləri**

Ziqmund Freyd öz psixoloji təcrübələrində həm bədii əsəri, həm də müəllifini psixoanalitik metodla şərh etmiş, Leanordo Da Vinçini, Mikelancelonu, Şekspiri, Maqbeti, Dostoyevskini psixoanalitik tədqiqata cəlb etmişdir. Bununla o, psixologiyanın ədəbiyyata əsaslanan təhlil və

araşdırmalarının başlanğıcını qoymuşdur. Ondan sonra Alfred Adler (1870-1937), Karl Qustav Yunq (1875-1961), Jak Lakan (1901-1981), Erix Fromm (1900-1980), Vilhelm Reyx (1897-1957), Otto Rank (1884-1939), Rollo Mey (1909-1994), Melani Klayn (1882-1960) və başqalarının əsərlərində ədəbiyyat psixologiyanın predmetinə çevrilir. Freyd özünün psixoanalitik ədəbi tənqidi ilə Yunqun arxetipik tənqidinə, Lakanın strukturalist psixoanalitik təhlilinə və ədəbi əsərlərə müxtəlif yanaşmalar tətbiq edən psixoloji nəzəri metodlara yol göstərmişdi. Bu psixoloqlar müəyyən anlayışları, hadisələri və nəzəriyyələri təhlil edərkən ədəbiyyatdan ciddi şəkildə bəhrələnmişlər [17, s.9]. Hər bir ədəbi personaj psixoloji tədqiqat üçün bir situasiya rolunu oynamışdır.

Əslində, ədəbi təhlil və psixoloji təhlil aktları arasında oxşarlıq var: hər iki halda gizli olan, altda yatan məna və anlamın ortaya çıxarılmasına can atılır. "XIX əsrə qədər fəlsəfə və ədəbiyyat sahələrinin daxilində şəkillənən psixologiya elmləşmə mərhələsinin bir tələbi olaraq sərhədlərini dəqiqləşdirmək məcburiyyətində qalır. Psixologiya özünü ədəbiyyatdan ayırmağa çalışarkən, xüsusilə Freydin təlimləri və mətnlərində bu iki sahənin əslində nə qədər bir-birilə iç-içə olduğunu görə bilirik" [2, s.23-24].

"Yaradıcı yazıçılar və gündüz yuxuları" (1908) əsərində Freyd psixologiyanın ədəbiyyata tətbiqinin əsasını qoyur. Freydin fikrincə, yaradıcılıq aktı yuxugörməyə bənzəyir. Bu, şüuraltı tərəfindən idarə olunan və ciddi şəkildə maskalanmış "gündüz yuxusu"dur. Freyd bədii əsərlərə öz xəstələri kimi baxırdı.

Beləliklə, psixoloji analiz XIX əsrin sonunda insanın təbiəti haqqında estetik və ya fəlsəfi görüşlərdən ayrılan, eksperimental, klinik və ya "elmi" psixologiya yaratmaq səylərinin içində yetişir. Uilyam Ceymsi (1890-cı ildə "Psixologiyanın prinsipləri" adlı əsər yazmışdır) eyni zamanda psixoloq və filosof olan sonuncu şəxs hesab edən Norman Hollanda görə, o zamandan bugünə qədər ədəbiyyatın psixoloji metodla öyrənilməsi psixologiya elminin inkişafındakı üç mərhələyə görə, üç fərqli mərhələdən keçir: psixoanalitik (Freydçi), arxetipik (yaxud analitik və ya Yunqçu) və idrak (koqnitiv) psixologiyası [10, s.30-34].

N.Hollandın "klassik" psixoanaliz deyə şərh etidyi birinci mərhələdə insan zehni şüur və şüuraltı şəklində bölünürdü, bunlar arasındakı keçidlər, ilk növbədə, patoloji və ya qeyri-adi davranışlarda – nevroz, yuxular, simptomlar və bədii yaradıcılıqda axtarılırdı. Psixoloji təhlil də mətnə deyil, müəllifin və personajlar heyətinin özünə yönəlirdi, müəllif və personajların özü əsas predmetə çevrilirdi.

Arxetipik strukturların təhlili 1920-ci illərdən 1960-cı illərin ortalarına qədər, xüsusən də Con Torbernin (1925), Maud Bodkin (1934) və Herbertin metodologiyasında özünü göstərir, Yunqun nəzəriyyəsi Nortrop Fray (1957), Leslie Fiedler (1960) və ümumiyyətlə, bütün "mif tənqidi" yazılarına nüfuz etmişdir.

Klassik psixoanalizin banisinə qayıtsaq, 1923-cü ildən sonra Freydin ədəbiyyatla bağlı araşdırmalarının yekunlaşdığı deyilir. Qərbdə psixoanalizlə ədəbiyyatın əlaqələrinin tarixini əhatə edən araşdırmasında Norman Holland qeyd edir ki, psixoanaliz özü üç xronoloji mərhələdə inkişaf edib: təhtəlşüurun psixologiyası (1897-1923), eqonun psixologiyası (1923-dən başlayır) və "öz" psixologiyası (təxminən 1950-ci illərdən başlayır). Bu mərhələlər, əslində, bir-birinin məntiqi davamı və daha geniş formasıdır. Birinci mərhələdə "Şüur və şüuraltı", ikincidə "Eqo və qeyri-eqo", üçüncü mərhələdə isə "öz və özgə" arasındakı dialoqla müəyyənləşir.

Ziqmund Freyd 1920-ci illərdən sonra öz nəzəriyyəsini təkrar işləyir və insan zehninin "İd, Eqo və Supereqo" şəklində simvolik struktur modelini təqdim edir, üç psixi aparatın qarşılıqlı əlaqəsi nəticəsində insanın psixi həyatını təsvir edir. İd həzz əsaslı instinktiv istəklərin məcmusu olub, əsas və ən primitiv mənlikdir, onun əsas mənbəyi cinsiyyət və aclıq kimi ehtiyacların ən eqoist şəkildə ödənilməsidir. Super-eqo tənqid və mənəviyyat rolunu oynayır, eqo isə İd-in instinktiv istəkləri ilə super-eqonun tənqidi arasında vasitəçilik edən realist qatdır – id-in fantastik istəklərini reallıqla ölçən və onun imkanlarını qiymətləndirən təbəqədir. Freyd eqo haqqında belə deyirdi ki, eqo, şahə qalxmış at üzərindəki cəngavər kimidir, İd və supereqonun istəklərini uzlaşdırmağa çalışan hakimdir [9, s.25].

Klassik psixoanalizin ən ilk mərhələsində şüur və şüuraltı arasındakı əlaqələr, şüuraltı olan daha önəmli hesab edilirdisə, psixoanalizin bir qolu kimi formalaşan eqo-psixologiyasında diqqət eqonun üzərinə yönəlir. Eləcə də fərdin ətraf aləmdə uyğunlaşmasına, şəxsi azadlıq, şəxsi muxtariyyət və şəxsi xüsusiyyətlərinə diqqət yetirilməsi ilə fərqlənir, eqonun müdafiə mexanizmləri haqqında nəzəriyyələr formalaşır. Bu cərəyanın əsas nümayəndələri Anna Freyd, H.Hartman, R.Şpits, M.Maler, E.Qlover və E.Erikson kimi psixoloqlar idilər. Ədəbiyyatşünaslıqda isə Otto Rank, Ernst Kris, Çarlz Mauron və başqalarının adlarını çəkmək olar.

Psixoanalizin tarixindəki üçüncü mərhələ Freydin ölümündən (1939) sonra başlayır. Psixoanalitik psixologiya öz və özgə (özü və başqası) ətrafında düşünməyə başlayır. Bu dövrün analitikləri psixoanalizi fərdi şəxsiyyətin ətraf mühiti ilə – mədəni, siyasi və antropoloji amillərlə qarşılıqlı əlaqəsinə diqqət yetirməyə başladılar. Psixoanalitiklər fərdləri formalaşdıran cəmiyyətlə cəmiyyəti formalaşdıran və bəzən də ona rəhbərlik edən fərdlər arasındakı qarşılıqlı əlaqəni – interaksiyanı nəzərdən keçirməyə üstünlük verdilər. Bu mərhələnin əsas xüsusiyyəti Freydin bioloji instikt nəzəriyyəsinin inkar olunması idi. Daha sonra Fransada Jak Lakan (1901-1981) və onun ardınca gələnlər (təxminən 1965-ci ildən başlayaraq) şüurlu və şüursuz təcrübələri dil mədəniyyətinə tətbiq etməyə başladılar.

Psixoanalizin hermenevtik mahiyyəti onu ədəbiyyatla yaxınlaşdıran əsas məsələdir. Paraiso bildirir ki, "müasir psixologiyanın bütün müxtəlif məktəbləri arasında psixoanaliz ədəbiyyatla bağlı ən əhəmiyyətlisidir, həqiqətən də Freydin mirası bu baxımdan bütöv bir ədəbiyyat nəzəriyyəsini təşkil edir" [16, s.1170].

Məsələ burasındadır ki, Freyd öz psixoloji araşdırmalarında ədəbiyyatın lüğətindən istifadə edir, bir sıra anlayışları götürüb yenidən kontekstuallaşdırırdı (məsələn, katarsıs kimi). Xaureqi İnmakulada Freydin ədəbiyyatdan hansı səviyyədə bəhrələndiyini belə metofirkləşdirir: "Freydin İncili Şekspir idi". Layonel Trillinq də eyni mövqedən yanaşırdı: "Freyd ədəbiyyata təsir etdiyi kimi, ədəbiyyata da təsir edib" [32, s.29]. Freyd öz nəzəriyyələrini təsdiqləmək üçün ədəbiyyata müraciət edirdi və deyirdi: "Şüuraltını məndən əvvəl şairlər və filosoflar kəşf etdilər... Mənim kəşf etdiyim şey şüuraltının öyrənilməsinin elmi metodu idi" [16, s.1172].

## Nəticə / *Conclusion*

Qısaca desək, ədəbiyyat psixologiyadan, psixologiya da ədəbiyyatdan bəhrələnə bilir. Bədii əsərlər öz personajlarını, ədəbiyyatın insanlarını yaradarkən psixologiya elminin qənaətlərindən, insan gerçəkliyinin psixoloji ölçü və meyarları haqqında psixologiya elminin müşahidə və nəticələrindən istifadə etdiyi kimi, bədii əsər də psixoloji araşdırmalar üçün resursa çevrilə bilir. Freydin nəzəriyyəsi modernist ədəbiyyatın yaranmasında və şərhində ciddi rol oynadı. Bu nəzəriyyənin əsas prinsipinə görə, insanların dərin, qaranlıq tərəfləri var və bu tərəflərin aşkarlanması üçün sənətə və psixoanalizə dərin ehtiyac duyulur.

## Ədəbiyyat / *References*


1. Armstronq, Karen. "Mifin qısa tarixi". – Bakı: Teas Press, 2017.
2. Arslan, Cüneyt. Psikolojinin Edebileşmesi. Arthur Schnitzler ve Normatif Hastalık İmgesi. – İstanbul. Çizgi Kitabevi Yayınları, 2016.
3. Bell, Matthew. The German Tradition of Psychology in Literature and Thought, 1700-1840. – Cambridge: Cambridge University Press, 2005.
4. Black, A. The "Axial Period": What Was It and What Does It Signify? The Review of Politics, 2008 70(1), 23-39. doi:10.1017/S0034670508000168
5. Borev, Yuri Borisoviç. Estetika. – Bakı, Təhsil, 2010.

6. Əliyeva, H. Psixoanaliz və Şekspir yaradıcılığı. https://sim-sim.az/h%C9%99mid%C9%99-%C9%99liyeva-psixoanaliz-v%C9%99-sekspir-yaradiciligi/
7. Эткинд, А. Эрос невозможного: История психоанализа в России / Художник В. Коршунов. – М.: Гнозис; Прогресс–Комплекс, 1994. https://rozamira.nl/lib/ski/ruskul/etkind_eros.htm#ei
8. Frank, J. Bruno. Psikoloji tarihine giriş. – İstanbul: Kibele yayınevi, 1996.
9. Freud, S. The Ego and the Id. The Standard Edition of the Complete Psychological Works of Sigmund Freud, Volume XIX (1923-1925): The Ego and the Id and Other Works, 1-66 https://www.sas.upenn.edu/~cavitch/pdf-library/Freud_SE_Ego_Id_complete.pdf
10. Holland, Norman Norwood. Holland's Guide to Psychoanalytic Psychology and Literature-and-Psychology. Oxford University Press USA, 1990. https://www.sas.upenn.edu/~cavitch/pdf-library/Freud_SE_Ego_Id_complete.pdf
11. http://humanbodytypes.com/body_type.shtml
12. http://madelinemiller.com/myth-of-the-week-psyche-and-eros/
13. http://www.thetransformedsoul.com/additional-studies/miscellaneous-studies/the-four-human-temperaments
14. https://www.gutenberg.org/files/1666/1666-h/1666-h.htm
15. https://www.merriam-webster.com/dictionary/psyche
16. Inmaculada Jauregui. Psychology and literature: The question of reading otherwise, The International Journal of Psychoanalysis, 2002. 83:5, 1169-1180, DOI: 10.1516/842E-00L2-PRJX-E26R
17. Naykı, Nil Korku. “Edebiyat Çalışmaları ve Psikoloji”, PIVOLKA, 2012, No 22, 9-11.
18. Notcutt, B. “Some Relations Between Psychology and Literature.” Theoria: A Journal of Social and Political Theory, no. 1, 1947. JSTOR, http://www.jstor.org/stable/41801334. Accessed 16 Dec. 2022.
19. Psixologiya / Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri dərslik (Elmi redaktorlar: S.İ.Seyidov və M.Ə.Həmzəyev) – Bakı, 2017.
20. Радхакришнан, Сарвепалли. Индийская философия. Т.1-2. Том первый. – М.: Миф, 1993.
21. Roger Smith. Zihin ve Doğa Arasında: Bir Psikoloji Tarihi. – İstanbul: Ayrıntı yayınları, 2015
22. Rohde, Erwin, Psyche: The Cult of Souls and the Belief in Immortality Among the Greeks, – London: Routledge, 2000.
23. Taylor, Charles. A Secular Age. – London, England: Belknap Press. 2018.
24. Теплов, Б. М. Избранные труды. – Москва: Педагогика, 1985.
25. Trilling, Lionel. The liberal imagination. – New York Review of Books, 2008.
26. Vidal, Fernando. The Sciences of the Soul. The Early Modern Origins of Psychology, December, 2011.

# Психоанализ литературы: методологические основы и теоретические критерии

**Сугра Алекберли**
Азербайджанский университет языков. Азербайджан.
E-mail: ssura7466@gmail.com

**Резюме.** Связь между литературой и психологией неизбежна и глубока. Во-первых, литература исходит из человеческого духа, а психология изучает человеческий дух. Человеческое воображение, мысль, чувство, в общем, все психические проблемы являются общими темами как литературы, так и психологии. Психология изучает человеческое поведение и его причины, а литература описывает человеческое поведение через художественную литературу. Любой художественный текст есть выражение и продукт определенного психологического состояния. Потому что, если оставить в стороне природную жизнь, физические явления природы, все остальное является частью человеческой культуры, выражением человеческой души, творческим актом *хомо сапиенс*. Во-вторых, литературоведение использует выводы психологической науки при изучении художественно-эстетических вопросов и проблем. Также литература используется при трактовке психологических проблем в науке психологии. Таким образом, связь литературы и психологии обычно устанавливается путем формального использования психологии (через психологический анализ) для анализа текстов, для понимания сущности самого творческого процесса. Психологическая наука, в свою очередь, может превратить литературу в предмет своего анализа. В представленной статье дается краткий обзор истории взаимоотношений литературы и психологии, а также рассматриваются аспекты, которые составляют основу психоаналитического анализа литературы. Подчеркивается неизбежность связи литературы и психологии.
**Ключевые слова:** литература, творчество, психология, психоанализ, З.Фрейд